HAQQIN SÖZÜ-SÖZÜN HAQQI.

# Yeni YOL

31 may 2017-ci il
№010 (48)

yeni_yol@mail.ru / İCTİMAİ QƏZET / “იენი იოლი” საზოგადოებრივი გაზეთი / qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur

## TÜRKİYƏNİN BAŞ NAZİRİ BİNƏLİ YILDIRIM GÜRCÜSTANDA RƏSMİ SƏFƏRDƏ OLUB



Türkiyənin baş naziri Binəli Yıldırım Gürcüstanda rəsmi səfərdə olub. Gürcüstanın hökumət administrasiyasından verilən xəbərə görə, mayın 23-də Gürcüstan hökumət administrasiyasında Türkiyənin baş naziri ilə rəsmi görüş təşkil olunub. Gürcüstan hökumətinin başçısı Georgi Kvirikaşvili türk həmkarını qəbul edib. Baş nazirlərin təkbətək görüşündən sonra iki ölkənin yüksək səviyyəli Strateji Əməkdaşlıq Şurasının iclası keçirilib. Gürcüstan və Türkiyə hökumətləri arasında müxtəlif sahələrdə əməkdaşlığa dair sənədlər imzalanıb. Bundan sonra baş nazirlərin birgə mətbuat konfransı olub.

Məlumatda bildirilir ki, Georgi Kvirikaşvili Binəli Yıldırımın şərəfinə rəsmi nahar verib.

Gürcüstana rəsmi səfəri çərçivəsində Türkiyənin baş naziri Binəli Yıldırımın Gürcüstan prezidenti Georgi Marqvelaşvili ilə görüşü də baş tutub.

## TÜRKİYƏNİN BAŞ NAZİRİ GÜRCÜ-TÜRK ƏMƏKDAŞLIĞININ UĞURLARINDAN BƏHS EDİB



25 il ərzində biz əməkdaşlığın elə səviyyəsinə nail olmuşuq ki, başqa ölkələr buna yüz illər ərzində də nail ola bilmirlər. Bu fikri Türkiyənin baş naziri Binəli Yıldırım gürcü həmkarı Georgi Kvirikaşvili ilə görüşdən sonra keçirilən birgə mətbuat konfransında səsləndirib.

Onun sözlərinə görə, iki ölkə qısa müddətdə strateji əməkdaşlıq istiqamətində dostluq, qardaşlıq münasibətlərinə nail olub.

Türkiyənin baş naziri Binəli Yıldırım vurğulayıb: “25 il ərzində biz əməkdaşlığın elə səviyyəsinə nail olmuşuq ki, başqa ölkələr buna yüz illər ərzində də nail ola bilmirlər. Hal-hazırda Gürcüstan və Türkiyə arasında siyasi problemlər yoxdur. Əksinə, bir çox istiqamətlərdə biz hərtərəfli əməkdaşlığı dərinləşdiririk”.

## GÜRCÜ-TÜRK STRATEJİ ƏMƏKDAŞLIQ ŞURASININ İCLASI KEÇİRİLDİ

Gürcüstanın baş naziri Georgi Kvirikaşvilinin və Türkiyənin baş naziri Binəli Yıldırımın rəhbərliyi ilə keçirilən Strateji əməkdaşlıq şurasının iclasında nazirlər kabinetinin üzvləri iştirak ediblər.

Yüksək səviyyəli Gürcüstan və Türkiyə Strateji Əməkdaşlıq Şurasının iclası çərçivəsində iki ölkənin baş nazirləri “Tbilisi Bəyannaməsi”ni imzalayıblar. Bəyannamədə tərəflər bir daha diplomatik əlaqələrin yaranmasının 25 illiyinə hörmətlərini ifadə ediblər və qeyd olunub ki, iki ölkə arasında mövcud olan əməkdaşlıq və dostluq regional sülhün, sabitliyin və rifahın zəmanətidir.

Mayın 23-də iki ölkə arasında mühüm sənədlər imzalanıb: “Gürcüstan Ədliyyə Nazirliyi və Türkiyə Ədliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında birgə bəyanat”, “Gürcüstan və Türkiyə Respublikası arasında birgə iqtisadi və ticarət komissiyayasının təsis edilməsi haqqında bəyannamə”, “Gürcüstan hökuməti və Türkiyə Respublikası hökuməti arasında mədəniyyət sahəsində əməkdaşlıq proqramı”, “Gürcüstan Ədliyyə Nazirliyi və Türkiyə Respublikası Nəqliyyat, Dənizçilik və Rabitə Nazirliyi arasında kiber təhlükəsizlik sahəsində əməkdaşlığa dair Memorandum”.

## 26 MAY GÜRCÜSTANIN MÜSTƏQİLLİK GÜNÜDÜR

26 May gürcü xalqının azadlıq tarixinə qızıl hərflərlə yazılan bir gün kimi daxil olub. 1918-ci il mayın 26-da Gürcüstan özünün müstəqilliyini elan edərək, Rusiyanın bir əsrdən artıq davam edən əsarətindən xilas oldu. Gürcüstanda demokratik dəyərləri rəhbər tutan Avropa tipli müstəqil dövlətin əsası qoyuldu. Üç ilə yaxın mövcudluğu ərzində Gürcüstan Demokratik Respublikası dövlət quruculuğu sahəsində bir çox mühüm islahatlara imza atdı. İctimai-siyasi, iqtisadi və mədəni həyatın müxtəlif sahələrini əhatə edən bu islahatlar qısa müddət ərzində yeni yaradılan dövlətin əldə etdiyi uğurların tam siyahısı deyil.

Lakin gürcü xalqının əldə etdiyi müstəqillik uzun sürmədi. Mürəkkəb beynəlxalq münasibətlər fonunda Sovet Rusiyası Gürcüstan Demokratik Respublikasının varlığına son qoydu. Lakin gürcü xalqı öz müstəqilliyi uğrunda mübarizəni bir anda olsa dayandırmadı. Nəhayət, ağır məhrumiyyətlərdən sonra 1991-ci ildə gürcü xalqı yenidən azadlığına qovuşaraq, öz müstəqil




dövlətini yarada bildi.

Artıq Gürcüstan Demokratik Respublikasının yaranmasından 99 il keçir. Mayın 26-da Müstəqillik Günü münasibətilə bütün ölkə miqyasında bayram tədbirləri keçirilib. Belə mərasimlərdən biri də Qardabanidə geniş ictimaiyyətin nümayəndələrinin iştirakı ilə, müxtəlif yaradıcı kollektivlərin təşkil etdiyi konsert proqramı ilə düzənlənib.

## GÜRCÜSTAN PREZİDENTİ İKİ YENİ QANUN İMZALAYIB

Gürcüstan prezidenti Georgi Marqvelaşvili iki yeni qanun imzalayıb. Onlardan biri qadınlara qarşı zorakılığın qarşısının alınmasına, digəri isə uşaqların övladlığa götürülməsinə dair qanunvericilik düzəlişlərinə aiddir.

Prezidentin parlament katibi Anna Dolidze irəli sürülən dəyişikliklərin ailə zorakılığının qabağını almaq, habelə övladlığa götürmə qaydalarının sadələşdirilməsi məqsədi daşıdığını bildirib.

Dolidzenin sözlərinə görə, parlament bəyəndiyi təqdirdə övladlığa götürmə növbəsində duran ailələr bu prosesin daha ədalətli həllinə ümid bəsləyə bilərlər.

Dolidze deyib: “Prezident iki qanun imzalayıb. Qanunlayihələrindən biri qadınlara qarşı cinayətə görə cəzaların sərtləşdirilməsini nəzərdə tutur.

Uşaqların övladlığa götürülməsinə aid olan çox böyük islahat qüvvəyə minir. Əhalinin bunu bilməsi vacibdir.”.

## TBİLİSİDƏ NATO PARLAMENT ASSABLEYASININ SESSİYASI KEÇİRİLİB




Tbilisidə NATO Parlament Assambleyasının dördgünlük sessiyası keçirilib.

Gürcüstan NATO PA sessiyasının keçirildiyi alyansa üzv olmayan beşinci ölkədir. Sessiyanın işində NATO-ya üzv olan 28 dövlətin, habelə alyansla tərəfdaş ölkələrin 600-dən çox nümayəndəsi iştirak edib. Gürcüstan nümayəndə heyətinə parlamentin müdafiə və təhlükəsizlik komitəsinin başçısı İrakli Sesiaşvili rəhbərlik edib.

Birinci gün sessiya iştirakçılarının birgə mətbuat konfransı, Gürcüstan-NATO parlamentlərarası Şurasının qapalı iclası, habelə ikitərəfli və çoxtərəfli görüşlər keçirilib.

NATO PA-nın ikinci və üçüncü iş günündə müdafiə və təhlükəsizlik, iqtisadiyyat və təhlükəsizlik, siyasət və digər komitələrin iclasları olub.

Sessiyanın komitə və plenar iclaslarında alyansın Avropa İttifaqı ilə, Gürcüstanla əməkdaşlığı, terrorizmlə mübarizə, Əfqanıstanda vəziyyət, Qara dəniz regionunda təhlükəsizlik problemləri və digər məsələlər müzakirə olunub.

Gürcüstan tərəfdən müdafiə naziri Levan İzoriya, Baş Qərargah rəisi Vladimir Çaçibaya, barışıq və vətəndaş bərabərliyi məsələləri üzrə dövlət naziri Ketevan Sixelaşvili, ekspert Kaxa Qoqolaşvili, “Gürcüstanın gənc hüquqşünaslar assosiasiyası” QHT-nın sədri Anna Natsvlişvili, DİN-in rəhbəri Mixail Canelidze və ölkənin keçmiş xarici işlər naziri İrakli Menaqrişvili məruzə ilə çıxış ediblər.

Gürcüstan parlamentinin sədri irakli Kobaxidze, baş nazir Georgi Kvirikaşvili, prezident Georgi Marqvelaşvili, habelə xüsusi qonaq qismində dəvət olunmuş NATO baş katibinin müavini Rouz Qetemüller və Ukrayna Ali Radasının sədri Andrey Parubiy tədbir iştirakçılarına müraciət ediblər.

Sessiyada Gürcüstanın Avroatlantikaya inteqrasiyasını dəstəkləyən bəyannamə qəbul edilib.

NATO Parlament Assambleyası iki ildə bir dəfə keçirilir. Gürcüstan 1999-cu ilin mayında NATO PA-nın assosiativ üzvü olub.



## HƏR ŞEYDƏN ŞİKAYƏTÇİ TOPLUMUN HEKAYƏTİ

Afiq MUXTAROĞLU
amuxtaroglu@mail.ru

**Nə qədər istəyirəm söhbətimdə şikayət, ahu-zar elementləri olmasın, adamlara pozitiv nəsə verim, müsbət tendensiyalardan danışım, yazımı oxuduqları bir neçə dəqiqə ərzində insanlar sevinclərindən aşıb, daşsınlar. Alınmır. Çalışıram ki, imzamı görən oxucum yazımdan müsbət bir enerji alsın, yazım onun üçün bir həyat qaynağına çevrilsin. Olmur. Mən bütün bu gözəl istəklərimə rəğmən yenə də şikayət notlarıyla süslənmiş bir yazı ortaya çıxarmaq məcburiyyətini yaşayıram və bu şikayət yüklü yazını yazmaqdan imtina etsəm, düşünürəm ki, bağrım çatlayacaq, infarkt-zad kimi bir andıra tuş olacam. Və orasını da əfəndimə ərz etmək istəyirəm ki, biz binayi-qədimdən, lap Nuh əyyamından şikayətlə arası saz olan bir toplumuq. Hər şeydən narazıyıq, hər şeydən şikayətçiyik. Dünənimizi mühakimə edərək, babalarımız düzgün yaşamayıblar qənaətini ortaya qoyuruq; bu günümüzdən şikayət edirik ki, özümüz düzgün yaşamırıq; sabahımızdan əmin deyilik və balalarımızı düzgün tərbiyə etmədiyimizdən onların yaxşı yaşamayacağını iddia edib, görücülük edirik.**

Biz şikayəti sevən toplum kimi görünsək də, əslində bunun belə olmadığını da anlayıram. Əslində biz şikayətə vadar edilmiş, şikayətçiliyə məhkum olunmuş toplumuq. Əslində biz ahu-zar etməyə məcburuq desək daha doğru olmazmı? Elə bu sualdan yola çıxsaq, məncə, müəyyən bir qənaətə gəlmək imkanı qazana bilərik və bizi şikayətçi durumuna soxan səbəblərə az-çox aydınlıq gətirmək imkanımız olar.

Biz, yuxarıda da ərz etdiyim kimi, keçmişimizi mühakimə etməkdən həzz alırıq. İnkarçılıq yolu tutaraq, babalarımızın həyat tərzini bəyənmirik, nihilizm azarına tutuluruq. Deyək ki, bu gün Məhəmməd Füzulini danmağa və onun qəzəllərini bəyənməməyə qalxan "şüəra" tayfası, özündən soruşurmu ki, əcaba, bizim yazdıqlarımızın cəmi Füzülinin bir beytini əvəz edə bilərmi? Nəyə desəniz and içərəm ki, bu inkarçılar, bu skeptiklər, bu şəkkaklar bu sualı özlərinə verməzlər və ya vermək istəməzlər. Füzulini Nişançı paşya məktub-namə yazmağa vadar edənlərin törəmələri belə bir sualı özlərinə ünvanlamağı rəva bilməzlər. Füzulinin halalca haqqını yeyənlər, doqquz ağça təqaüdünə göz dikənlər onu dünyaca məşhur "Şikayətnamə"ni yazmaq məcburiyyətində qoymadılarmı? İndi də onların ağzına gücü yetməyən törəmələri Füzulini qınamaqla, mühakimə etməklə məşğuldurlar.

Bizim yarandığımız gündən işimiz-peşəmiz bir-birimizin ayağından dartmaq, bir-birimizə badalaq qurmaqdır. Biz təhtəlşüur olaraq bir-birimizə mane olmaq yolunu tutub, bir-birimizin ayağının badalaqçısı, çidarı oluruq. Varislik yolu ilə baba atanın, ata oğulun və ya əksinə gününü göy əskiyə bükməkdədir. Övladını düzgün tərbiyə etməyən ata oğlundan şikayətçidir, sabah da qafasında bir zad olmayan oğulun dünyaya gətirdiyi nəvəyə verməyə heç nəyi olmayacaq və atasından heç bir mənəvi qida almayan övladın toplumda tutacağı mövqe onu dünyaya gətirənin şikayətləri ilə müşayiət olunacaq. Alma budağından gen düşməz deyiblər. Sən övladına nə verdin ki, sonra da ondan nəsə umasan. Övladın uşaqlığını qayğısızlıq içində keçirir və sən ona hələ uşaqdır deyib heç nə öyrətmirsən, yeniyetməliyini də bu minvalla yola verir, yenə də heç nə dəyişmir, gənclik də keçir və sənin övladın artıq dəyişə bilmir; artıq iş tərbiyədən keçib, heç özünütərbiyənin də bu məqamda şəltəsi işləmir, özünütərbiyəlik bir iş qalmır. Nədən ki, məsələyə qırxında öyrənən gorunda çalar məsəlindən yanaşsaq, bizə qozbeli qəbir düzəldər deməkdən savayı heç nə qalmır. Bu üzdən də sənin övladından şikayətçi olman nə qədər təbii görünsə də, əslində çox qeyri-təbii bir haldır.

**Əslində tarix dünənin, bu günün və sabahın cəmindən oluşan bir məfhumdur. Əgər biz dünən buraxdığımız səhvləri islah edib, düzəltmək istəmiriksə, bunun günahını özümüzdə axtarmalıyıq. Dünən buraxılmış istənilən səhvi bu günə daşıyıb gətirmişiksə və bu səhvin üstünə birini də, beşini də əlavə etmişiksə, yenə də kənarda günahkar axtarmaq yersizdir. Və sabah da bu, belə davam edəcəksə, onda vay bizim halımıza. Yenə də ahu-zarımız ərşə bülənd olacaq, yenə də şikayətimizdən aləm zinhara gələcək və kənardan baxanların ikrahına tuş gələcəyik. Və qəribədir ki, buna görə yenə də kimlərdənsə şikayətçi olub, günahı başqalarında axtarmağa girişəcəyik. Əslində belə olmadığını hamımız bilirik.**

## AZƏRBAYCANIN RESPUBLİKA GÜNÜ GÜRCÜSTANDA DA QEYD OLUNDU



28 May hər bir azərbaycanlının milli qürur hissi duyduğu gündür. Əsrlərlə azadlıq və müstəqillik arzusu ilə yaşayan Azərbaycan xalqı ötən əsrin əvvəllərində arzusuna qovuşdu. Şərqdə ilk dəfə azad, demokratik, dünyəvi dəyərlərə söykənən müstəqil bir respublikanın yarandığı dünyaya bəyan edildi. Xalqımız 1918-ci il mayın 28-də çar Rusiyasının müstəmləkə əsarətindən azad oldu, Şərqin ilk demokratik respublikasının təməlini qoydu. Azərbaycan Milli Şurasının iclasında İstiqlal Bəyannaməsi qəbul edildi.

1920-ci il aprelin 27-də Azərbaycan Xalq Cümhuriyyətinin 701 günlük ömrünə son qoyuldu. Türk dünyasının ilk müstəqil dövləti süquta uğradı.

Lakin Azərbaycan xalqı 1991-ci ilin oktyabrında ikinci dəfə öz müstəqilliyini elan etdi.

Azərbaycan Xalq Cümhuriyyətinin əsasının qoyulmasından 99 il ötür. Bu münasibətlə dünyanın bir sıra yerlərində, o cümlədən də ölkəmizdə təntənəli mərasimlər keçirilib. Mayın 24-də Tbilisidə bu münasibətlə düzənlənən tədbirdə Azərbaycanın Gürcüstandakı səfiri Dursun Həsənov başda olmaqla səfirliyin əməkdaşları, Gürcüstanda fəaliyyət göstərən Azərbaycan şirkətlərinin nümayəndələri, Gürcüstanda akkreditasiya olunmuş diplomatik korpusların üzvləri, Gürcüstanın müxtəlif bölgələrindən gəlmiş ictimayyət nümayəndələri iştirak edirdilər.

Azərbaycanın Respublika Gününə həsr olunmuş təntənəli mərasimə qatılan Gürcüstanın baş naziri Georgi Kvirikaşvili mərasim iştirakçılarını salamlayaraq, bu günün Azərbaycan xalqının həyatında müstəsna əhəmiyyətini qeyd edərək, öz təbriklərini söyləyib.

## TÜRKİYƏ PREZİDENTİ RƏCƏB TAYYİB ƏRDOĞAN YENİDƏN ƏDALƏT VƏ İNKİŞAF PARTİYASININ SƏDRİ SEÇİLİB



21 may 2017-ci il tarixində Ankara idman salonunda keçirilən Ədalət və İnkişaf Partiyasının (AKP) üçüncü, növbədənkənar qurultayında Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan 998 günlük fasilədən sonra yenidən qurucusu olduğu partiyanın sədri seçilib.

AKP-nin növbədənkənar qurultayı Rəcəb Tayyib Ərdoğanın partiya rəhbəri seçilməsi üçün keçirilib.

Keçirilən gizli səsvermədə Prezident Ərdoğanın namizədliyini 1414 nümayəndə dəstəkləyib. Bu səsvermə nəticəsində Türkiyənin hazırkı prezidenti yenidən AKP-nin sədri seçilib.

Türkiyə lideri bu il aprelin 16-da keçirilən Konstitusiyaya əlavə və dəyişikliklərlə bağlı referendumun nəticələri elan olunduqdan sonra AKP sədrliyinə qayıtmaq barədə qərar verib.

Xatırladaq ki, Rəcəb Tayyib Ərdoğan partiyanın sədri postundan 2014-cü ilin avqustunda istefa vermişdi.

## AZƏRBAYCANIN MÜDAFİƏ NAZİRİ GÜRCÜSTANA RƏSMİ SƏFƏR EDİB



Azərbaycanın müdafiə naziri Zakir Həsənov mayın 22-də Tbilisiyə rəsmi səfər edib. Gürcüstan müdafiə naziri Levan İzoriya qonağın şərəfinə rəsmi qəbul düzənləyib, rəsmi qəbuldan sonra azərbaycanlı həmkarı ilə ikitərəfli görüş keçirib.

Tərəflər Azərbaycanın və Gürcüstanın qarşısında duran ərazi problemlərini nəzərə alaraq, hər iki ölkənin ərazi bütövlüyünün dəstəklənməsinə xüsusi diqqət yetiriblər.

Levan İzoriya hər iki ölkəni strateji əməkdaşlığın birləşdirdiyini və regionda sülhün və təhlükəsizliyin təmin edilməsi üçün bu əməkdaşlığı gücləndirməyin vacibliyini vurğulayıb.

Zakir Həsənov Gürcüstan və Azərbaycan arasında müdafiə və təhlükəsizlik sahəsində əməkdaşlığın yüksək sürətlə inkişaf edəcəyinə ümidvar olduğunu bildirib.

Nazirlər birgə təlimlərin keçirilməsi, habelə üçtərəfli gürcü-türk-Azərbaycan əməkdaşlığı məsələlərini müzakirə ediblər.

Azərbaycanın müdafiə nazirini Gürcüstanın baş naziri Georgi Kvirikaşvili də qəbul edib. Görüşdə iki ölkə arasında qarşılıqlı tərəfdaşlıq münasibətləri, əməkdaşlığın sonrakı perspektivləri və müdafiə sahəsində təcrübə mübadiləsinin əhəmiyyəti kimi məsələlər müzakirə edilib. Regionun enerji-nəqliyyat infrastrukturunun müdafiəsi məqsədilə üçtərəfli əməkdaşlığın daha da inkişaf etdirilməsinin vacibliyi vurğulanıb.

# GÜRCÜSTAN HÖKUMƏTİ ELEKTRON PETİSİYA PORTALI YARADIR

Gürcüstan hökuməti ichange.gov.ge adlı elektron petisiya portalı yaradır. Portalın yaradılması cəmiyyətin dövlət siyasətinə qoşulması, hökumətin fəaliyyətinin və qərarların şəffaflığının təmin olunması məqsədi daşıyır. Hökumətin qərarına görə, Gürcüstanın bütün yetkinlik yaşına çatmış vətəndaşları hökumət qarşısında elektron petisiya təşəbbüsü ilə çıxış edə bilər və elektron petisiyanı imzalamaq hüququna malikdir.

Elektron petisiya ichange.gov.ge portalına qəbul edilib dərc olunacaq.

Elektron petisiyanın baxılması və rəsmi cavab alınması üçün elektron petisiyanı 10 000 istifadəçinin dəstəkləməsi gərəkdir. Elektron petisiya portalda dərc olunduqdan sonra bu qədər imzanı 30 təqvim günü ərzində toplamalıdır. Əgər göstərilən vaxt ərzində petisiya tələb olunan sayda imza toplaya bilməsə, vaxtı keçmiş hesab ediləcək, ichange portalında bağlanacaq və ona imza əlavə etmək mümkün olmayacaq.

Hökumət elektron petisiyaya Gürcüstan hökumət administrasiyasında yaradılmış ekspertlərdən ibarət elektron petisiya komissiyası vasitəsilə baxacaq. Həmin komissiyanın təşəbbüsü ilə, Gürcüstan hökumət administrasiyasının rəhbəri ilə razılaşma əsasında elektron petisiya Gürcüstan hökumətinin iclasında müzakirə oluna bilər.

# GÜRCÜSTANIN PENSİYA SİSTEMİNDƏ İSLAHATLAR GÖZLƏNİLİR



Amerikan-gürcü biznes şurasının 20 illik yubileyinə həsr olunmuş konfransda Gürcüstanın baş naziri Georgi Kvirikaşvili hökumətin dördbəndlik islahatlar planından bəhs edib.

Baş nazirin sözlərinə görə, gələn ilin üçüncü kvartalından pensiya sistemi islahatlarının ikinci mərhələsi başlayacaq və bu, məcburi yığıma əsaslanan pensiya sisteminin yaradılmasını özündə ehtiva edəcək.

Georgi Kvirikaşvili vurğulayıb: "İqtisadi islahatlar nöqteyi-nəzərindən biz artıq pensiya sisteminin islahatına başlamışıq. Gələn ilin üçüncü kvartalından pensiya sistemi islahatının ikinci mərhələsini həyata keçirəcəyik. Məcburi yığıma əsaslanan pensiya sistemi bir tərəfdən gələcək pensiyaçıları layiqli həyat şəraiti ilə təmin edəcək, digər tərəfdən isə yüz milyonlarla lari həcmində yerli uzunmüddətli sərmayə kapitalı yaradacaq".

# GMB-NIN BAŞÇISI ƏHALİNİ PUL DƏYİŞƏRKƏN SAYIQLIQ GÖSTƏRMƏYƏ ÇAĞIRDI

Gürcüstan Milli Bankının rəhbəri Koba Qvenetadze əhalini valyutadəyişmə köşklərində pul dəyişərkən sayıqlıq göstərməyə səsləyib. Onun sözlərinə görə, GMB valyutadəyişmə məntəqələrinin yoxlanışını davam etdirir.

Qvenetadze həmçinin qeyd edib ki, valyutadəyişmə məntəqələrində pozuntular turist mövsümünün gəlişilə xüsusi şəkildə fəal olur.

GMB-nin başçısı deyib: "İstəmirəm ki, yoxlamalar mövsümi xarakter daşısın, lakin turist mövsümü fəallaşanda pozuntular artır. Batumidə yoxlamaların gedişində müxtəlif növ pozuntular aşkarlanıb. Valyuta dəyişmənin qaydaları mövcuddur, dəyişmə kursları bu tələbləri ödəməlidir. Yoxlama məhz bu qaydalara uyğun baş verib. Pulun yuyulmasına qarşı qaydalar mövcuddur, qanunun tələbləri var və məhz bundan çıxış edərək sanksiyalar qəbul edilir".

Gürcüstan Milli Bankının prezidenti əhalini valyutadəyişmə məntəqələrinə münasibətdə daha ehtiyatlı davranmağa çağırıb.

"Əhalini hansı əməliyyatlar etmələrinə diqqətlə nəzər yetirməyə və əgər hər hansı pozuntu aşkarlanarsa, mütləq Milli Bankın qaynar xəttinə məlumat verməyə çağırıram" – Koba Qvenetadze bəyan edib.

# GÜRCÜ AİLƏSİNİN GƏLİRLƏRİ VƏ XƏRCLƏRİ BƏLLİ OLUB

Əksər gürcü ailəsinin gəlirləri 151-800 lari arasında dəyişir. Müvafiq məlumatları ABŞ-ın NDİ qeyri-hökumət təşkilatı 2017-ci ilin aprel ayında keçirdiyi ictimai rəy sorğusu araşdırmaları nəticəsində əldə edib.

Bütün Gürcüstan miqyasında keçirilən araşdırmanın gedişində 2500 nəfərin fikri öyrənilib. Rəyi öyrənilənlərə gəlir səviyyəsinə və aylıq xərclərə görə ailələrini aid edə biləcəkləri qruplardan birini seçmək təklif olunub. Respondentlərin 24%-i ailə gəlirlərinin 261 laridən 400 lariyədək olduğunu söyləyib, 21%-in gəlirləri 151-260 lari, 20%-in gəlirləri isə 401 laridən 800 lariyədək olub. Cəmi 10% ailə 801 laridən 1200 lariyədək aylıq gəlirə malikdir. 3%-in aylıq gəliri 1201 laridən 1600 lariyədək, 2%-in aylıq gəlirləri isə 1600 laridən artıqdır. Rəyi soruşulanlardan 4%-inin ailəsi bir ayda 150 lariyədək gəlirə malikdir.

Respondentlərin 3%-i ayda 1600 laridən artıq,



3%-i 1201 laridən 1600 lariyədək, 10%-i 801 laridən 1200 lariyədək, 22%-i 401 laridən 800 lariyədək, 25%-i 261 laridən 400 lariyədək, 21%-i 151 laridən 260 lariyədək, 4%-i 150 laridən az xərcləyir.

Rəyi öyrənilənlərin 4%-i Gürcüstanın həqiqətən də düzgün istiqamətdə inkişaf etdiyinə əmindir. 29%-i isə ölkənin əsasən düzgün istiqamətdə inkişaf etdiyi qənaətindədir. 31% düşünür ki, ölkə dəyişmir. 18% ölkənin əsasən düzgün istiqamətdə inkişaf etmədiyini düşünür. 13% isə ölkənin həqiqətən də düzgün inkişafda olmadığına əmindir.

# CƏMİYYƏTİMİZDƏ NƏ BAŞ VERİR?



Hacı BƏKİROĞLU
*kafkasli@mail.ru*

**Öncəliklə bütün İslam aləmini, müsəlman bacı və qardaşlarımızı mübarək Ramazan ayı münasibəti ilə təbrik edir, tutduqları orucların, etdikləri duaların Allah qatında qəbul olunmasını niyaz edirəm. Ramazan həzrəti peyğəmbərin təbiri ilə desək bir qalxandır. Çünki insanı yalandan, qeybətdən, boş vaxtdan qoruyur. İnsanı da günaha aparan elə bunlardır.**

Ramazan bir məktəbdir. İnsanı gözəlliklərlə, insanlıq xüsusiyyətləri ilə yetişdirən bir məktəb. Acların halını anlayıb, onlara da şəfqət göstərməyi öyrədən bir məktəb. Yoxluğa səbr etməyi, həyatını Allahın qoyduğu çərçivədə yaşamağı düstur almağı öyrədən bir məktəb.

Ramazan bir mərhəmətdir. Çünki min aydan daha xeyirli olan qədr gecəsini özündə saxlamaqdadır. Çünki aləmlərə rəhmət olaraq göndərilən iki cahan günəşinin peyğəmbərliyi bu ayda verilmişdir. Ona görə rəhmət ayıdır ki, Uca Allahın bizimlə danışdığı, bizə göndərdiyi məsaj, həyatımıza yön verən Qurani Kərim bu ayda nazil olmuşdur. Çünki cənabı Allah qullarının günahlarını bu ayda əfv və məğfirət edir.

Ramazan bir bərəkət ayıdır. Çünki insanlar bir-biri ilə paylaşmağı öyrənirlər. Bir-biri üçün dua edirlər. Toplu şəkildə iftarlar və sahurlar edirlər.

Keçən sayımızda da Ramazanla bağlı yazdığım üçün sizləri çox yormaq istəmirəm və keçid almaq istəyirəm digər mövzumuza. Uzun zamandır bu mövzuya toxunmuram. Ancaq son zamanlarda baş verən kiçik bir hadisə məni yenidən bu mövzu haqqında yazmağa, düşüncələrimi sizlərlə paylaşmağa vadar etdi.

Qulağıma gəlib çatan səs-sədalardan belə anladım ki, bəzi din xadimlərimiz (özünü din xadimi adlandıranlar) yas mərasimlərində böyük miqyaslı ehsanlar verməyin dinimizin əmri olduğunu söyləyib, bu yöndə İslam adına təbliğatlar aparırlar. Bəri başdan deyim ki, bu anlayışın İslam dini ilə heç bir əlaqəsi yoxdur. İslam dininə görə ehsan hər məclisdə eyni üzləri yedirdib yola salmaq yox, ehtiyacı olanları yedirdib onları razı salmaq, gözəl əməllər işləyib əməl dəftərinə savab yazdırmaq, insanların faydalana biləcəyi işlər görməkdir ki, buna da misal olaraq bulaq çəkdirmək, yol salmaq kimi xeyriyyə işlərini göstərə bilərik. Ancaq bizim etdiyimiz yeyib-içmə məclisləri, qəbrin üstünə qoyduğunuz allı-güllü daşlar ehsan sayılmır. Sual oluna bilər ki, camaata yemək vermənin nəyi pisdir? Cavab verim: əgər yemək vermək istəyirsənsə, birincisi, ehtiyac sahiblərinə ver ki, onlar da sənə dua etsinlər. İkincisi, o verdiyin yeməyi ailələrə paylasan daha yaxşı olar ki, bir evdən bir nəfər yox, bir neçə nəfər faydalana bilər. Digər tərəfdən pis yönü odur ki, el nə deyər, xalq məni qınayar deyib oğul-uşağın boğazından kəsib daş parçasına və hər yas yerində baş köşədə qərarlaşan bir neçə nəfər qarınquluya xərcləyirsən. Ancaq İslam adətinə görə cənazəsi düşən ailə kədərli olduğuna görə qonşular, qohumlar yemək bişirib o ailəyə gətirirlər ki, başı qarışıqdır, gələni-gedəni çoxdur, yemək hazırlaya bilməz.

İndi siz düşünün oğul-uşağın boğazından kəsərək kimlərisə yemləyərək, daş parçasına verərəkmi ölünüzə ehsan verirsiniz, yoxsa ac qarınları doyduraraq və ailənizin rahat dolanması iləmi ölünüzə savab qazanırsınız?

Mən belə bir təklif edərdim ki, dövlətimiz tərəfindən, xüsusilə də Bütün Gürcüstan Müsəlmanları İdarəsi tərəfindən bu işə bir əncam çəkilsin. Yəni ki, yas mərasinlərimizə bir şəkil verilsin. Kənd mollalarına rəsmi sənəd çıxarılsın, onlara dini qayda-qanunlarla bağlı tapşırıqlar verilsin və hər kəsə aid olan bir qayda-qanun yaradılsın.

Sonda onu da vurğulayım ki, insana ölümündən sonra süfrə açıb, şəkilli, dəbdəbəli daş dikdirməklə hörmət olunmur. İnsana sağlığında hörmət olunur. Yoxsa ki, həkimə, iynə-dərmana verməyə pulu olmayan, həkimi borcla yola salan insanın ölüsünə bahalı daş qoydurmasının faydası nədir?

**O qəbirdə yatanın sağlığında görmədiyi meyvələri, yeməkləri ölümündən sonra yad adamların yeməsindən o ölüyə bir fayda yoxdur. Gəlin ona o yeməkləri və hörmət-izzəti sağlığında göstərək.**



## NATO ZİRVƏSİNİN QARŞIYA QOYDUĞU HƏDƏFLƏR

Sahib MUSTAFA
*sahib1975.sm@gmail.com*

**Dünyanın diqqəti cari il mayın 25-də Brüsseldə keçirilən NATO-nun növbədənkənar zirvə toplantısına cəmlənmişdir. Görüşdə masaya yatırılan mövzuların mahiyyəti ictimayyətə açıq olsa da, təşkilatın yaxın gələcəkdə hansı yol xəritəsi ilə hərəkət edəcəyi müzakirələrə hər zaman açıqdır. Ona görə 3 məsələdə –beynəlxalq terrorizmlə mübarizə, Alyansın hərbi büdcəsini və örtülü də olsa Moskvaya təzyiqlərin artırlması barəsində əldə olunan razılaşmaları təftiş etmək yerinə düşərdi.**

İlk növbədə qeyd edək ki, hərbi Alyansın çəki baxmından öndə gedən üç ölkəsinin – ABŞ, Fransa və İngiltərənin liderləri dövlət və hökümət başçısı qismində ilk dəfə NATO zirvəsinə qatılırdı. Görüşdə müzakirə edilən əsas mövzu beynəlxalq terrorizm və İŞİD-ə qarşı mübarizədə Şimali Atlantika Təşkilatının koodrinasiya mərkəzinin yaradılması idi. Çoxdandır ki, NATO təşkilat olaraq terrorizmə qarşı hərbi əməliyyatlarda passivlik sərgiləyir və dolayısı ilə hərbi qüdrətini nümayiş etdirə bilmir. Ona görə də güc sərgiləməyin optimal variantı terrorizmlə mübarizə bəhanəsi ilə Yaxın Şərqi və Əfqanıstanı hərbi poliqona çevirməkdir. Lakin, əsl məqsəd dolayı vasitələrlə Kreml üzərində təzyiqlərin artırılmasna xidmət edir. Çünki, NATO-nun istənilən toplantılarında "Moskva məsələsi" həmişə gündəmdə olmuşdur. Adıgedən təşkilatın sədri Stoltenberq heç də bunu gizlətmir. Krımın Rusiya tərəfindən anneksiya faktının ortada olması halında Moskva təhlükə mənbəyi hesab edilməlidir. NATO Şərqi Avropada dayaq müdafiə sistemini gücləndirməlidir. Rusiyanı küncə sıxışdırmağın yeganə yolu hərbi-siyasi basqıları artırmaqdır. ABŞ prezidenti bunu yaxşı anlayır. O, seçkiqabağı kompaniyalarında dəfələrlə NATO-nu "cəsarətsiz"likdə suçlamışdır. "Soyuq müharibə" səngidikdən sonra NATO-ya üzv ölkələr təşkilatın nəzdindəki hərbi məsrəflərini azaltmışdır. Trampın qurumun büdcəsinin artırılması ideyasını ortaya atması eyni zamanda Moskvaya təzyiqlərin çoxalacağı kimi də dəyərləndirilməlidir. Odur ki, Tramp təşkilat üzvlərindən hərbi xərclərin ayrı-ayrılıqda Ümumi Daxili Məhsulun 2%-ə qədərini təşkil etməsini tələb edir. Onun fikrincə, yalnız bundan sonra təşkilat kollektiv təhlükəsizliyə nail ola bilər. Tramp NATO üzvü ölkələrini üzərlərinə götürdükləri öhdəlikləri yerinə yetirməməkdə ittiham edir. Çünki, Şimali Atlantika Təşkilatının hərbi xərclərinin böyük qismi ABŞ-ın payına düşür. Əgər, təşkilat üzvlərinin ortalama hərbi büdcələri Ümumi Daxili Məhsulun 1,2%-ini təşkil edirsə, bu göstərici ABŞ-da 5,3%-dir. Şübhəsiz ki, aradakı böyük fərq Trampı narahat etməyə bilməz. Bu da, o anlama gəlir ki, "Moskva təkcə ABŞ-ın yox, eyni zamanda onun müttəfiqlərinin də düşmənidir". ABŞ prezidentinin "mühasibat hesablamaları"na görə, əgər Alyansın üzvləri öz öhdəliklərini tam yerinə yetirsəydi, təşkilatın indiki bərbi büdcəsi 120 milyard dollar daha artıq olardı. Hər bir üzv ölkə 2024-cü ilədək 2% meyarını yerinə yetirəcəklərini qəbul edir. Hal-hazırda yalnız 5 üzv ölkə – ABŞ, Böyük Britaniya, Polşa, Estoniya və hər nə qədər qəribə də olsa, borc icində çabalayan Yunanıstan hərbi xərclərini Ümumi Daxili Məhsulun 2 %-i səviyyəsində saxlayır.

NATO-nun son zirvə görüşünü "fırtınadan öncəki sakitliyə" bənzətmək olar. Artıq, Tramp ABŞ adına təşkilatda təşəbbüsü tam ələ almışdır. NATO toplantısından öncə Səudiyyə Ərəbistanına səfər edən Trampın Ər-Riyadla hərbi sahədə 350 milyard dollarlıq müqavilə imzalamasının məntiqi nəticəsi özünü çox gözlətməyəcəkdir. ABŞ prezidentinin əsl məqsədi Rusiyasız terrorizmə və İrana qarşı mübarizə aparmaqdan ibarətdir. Bunun üçün isə Yaxın Şərqdə Səudiyyə Ərəbistanı, İordaniya, BƏƏ və Misirdən ibarət "kölgə NATO-su" gərəkdir. Çox güman ki, Ağ Evin hal-hazırda əsas hədəfi budur.

**Hadisələrin bu yöndə cərəyan etməsi onu deməyə əsas verir ki, yaxın gələcəkdə Yaxın Şərq regionu yenidən qaynar əməliyyat meydanına çeviriləcəkdir. Zərər və fəlakət yenə də bölgə ölkələrinə dəyəcək, qazanan isə imperiya qüvvələri olacaqdır.**

## FRANSIZ MƏKTƏBLİLƏRİNƏ ƏRƏB DİLİ ÖYRƏNMƏK TƏKLİF OLUNUR

Bir sıra ekspertlər qeyd edirlər ki, artıq mühacirlər deyil, fransızlar yeni gerçəkliklərə uyğunlaşmağa məcburdurlar.

Fransanın təqribən 400 ibtidai məktəbi məktəblilərə təcrübə məqsədilə ərəb dilini öyrənməyi təklif edir. ərəb dilini Avropa dilləri ilə bir səviyyədə seçmək mümkündür.

Ekspertlər Emmanuel Makronun prezidentliyi dövründə ərəb dilinin populyarlığının yeni güc toplayacağını güman edirlər. Bununla belə məktəblərdə belə fənnin tətbiqi birmənalı qarşılanmayıb. Qeyd olunur ki, multikulturalizm siyasətinin tam iflasa uğraması nəticəsində indi fransızlar yeni gerçəkliklərə uyğunlaşmağa məcburdurlar.

Fransada 5-7 milyon nəfər özünü müsəlman hesab edir, buna yüz minlərlə ərəb qaçqını ilə görünməmiş mühacir böhranı da kömək edir. Mərəkeş əsilli keçmiş təhsil naziri Nacat Vallo-Belkasemi məktəblərdə ərəb dilinin məcburi öyrədilməsi təşəbbüsü ilə çıxış etməyə sövq edən amillərdən biri də budur.

Hakimiyyət belə bir tədbir görməsə də, ərəb dilinin bir sıra məktəblərdə fakültativ olaraq öyrənilməsini qəbul etməyə məcbur olub. Bu tədris ilində təcrübədə 392 ibtidai məktəb iştirak edir.

## RAYNER BRAUN: MANÇESTERDƏKİ TERROR AKTI NATO VƏ ABŞ-IN TƏCAVÜZKAR SİYASƏTİNİN NƏTİCƏSİDİR

"Parisdə, Mançesterdə və Berlindəki partlayışlar ABŞ-ın və NATO-nun terrorizmə qarşı mübarizə adlanan təcavükar siyasətinin nəticəsidir". Beynəlxalq Sülh Bürosunun həmsədri Rayner Braun Mançesterdəki terror aktını şərh edərkən, belə bir mövqedən çıxış edib.

O, deyib: "Mançesterdəki terror aktı bütün bəşəriyyətin zərər gördüyü faciədir. Biz siyasətdə dərin dəyişiklik etməliyik".

Beynəlxalq Sülh Bürosunun həmsədri vurğulayıb: "Bizə qarşılıqlı anlaşma, əməkdaşlıq və ədalət siyasəti gərəkdir. İlk addım qarşıdurmanı və müharibələri dayandırmaqdır. Bundan imtina etmək və düşmənlərlə, dostlarla danışıqlara başlamaq zamanıdır. Münaqişələrin sülh yolu ilə həlli alternativdir. Danışıqlar, əməkdaşlıq, müharibələrin dayandırılması sülh yaradacaq. Biz bütün tərəflərdən olan qurbanlara acıyırıq. Biz siyasətdə sülh istəyirik".



Qeyd edək ki, Beynəlxalq Sülh Bürosu Avropa və Şimali Amerikanın milli sülh təşkilatlarının hər il keçirilən məsləhətləşmələri nəticəsində 1892-ci ildə təsis olunub. 1901-ci ildən 1982-ci ilədək Büronun 13 əməkdaşı Nobel sülh mükafatı alıb. Büro 1910-cu ildə Nobel mükafatına da layiq görülüb.

## VAŞİNQTON ŞTATININ SENATI QOLODOMORU SOYQIRIMI KİMİ TANIYIB

1932-1933-cü illər Qolodomorunu soyqırımı kimi tanımaq haqqında qərar yekdilliklə qəbul olunub. Qətnamənin müəllifi Vaşinqton ştatının senatoru Respublikaçılar partiyasından Mark Miloşiadır. Bu barədə Ukraynanın ABŞ-dakı səfirliyinin mətbuat xidməti məlumat yayıb.

Qətnamədə deyilir: "Qolodomor İosif Stalinin və sovet rejiminin Ukrayna xalqına qarşı təşkil etdiyi soqırımıdır".

Məlumatda Ukraynanın Sietldəki fəxri konsulu Valeri Qoloborodkonun dinləmələrdə iştirak etdiyi bildirilir. O, Vaşinqton ştatının general-qubernatoru, senatın prezidenti Sirus Həbibiyə Ukraynanın ABŞ-dakı səfiri Valeri Çaloqonun təşəkkür məktubunu çatdırıb.

2016-cı ildə Ukrayna Ali Radası tərəfdaş dövlətlərə Ukraynadakı 1932-1933-cü illər hadisələrini bolşeviklərin Ukrayna xalqına qarşı cinayəti kimi tanınması ilə bağlı müraciət etmişdi. Hal-hazırda 14 dövlət 1932-1933-cü illər aclığını ukraynalıların qəsdən məhv edilməsi kimi tanıyır, 10 dövlət isə Stalin rejiminin törətdiyi bu hərəkətləri insanlığın məhv edilməsi aktı kimi dəyərləndirir.

İsrail prezidenti Reuven Rivlinlə görüşündə Ukraynanın baş naziri Vladimir Qroysman 1932-1933-cü illər Qolodomorunun Ukrayna xalqının soyqırımı aktı kimi tanınmasının vacibliyini vurğulayıb.

## DÜNYANIN ZƏNGİN ADAMLARI BİR GÜNDƏ 35 MİLYARD DOLLAR İTİRDİLƏR




Dünyanın 500 ən varlı milyarderi mayın 17-də ümumilikdə 35 milyard dollar itirib. Bu ABŞ prezidenti Donald Trampın ətrafında yaranmış qalmaqalla əlaqədar aparıcı birjalarda fond indekslərinin kəskin düşməsi üzündən baş verib.

Aktivlərin kəskin ucuzlaşması FTB-nin direktoru Ceyms Komini istefaya göndərməzdən əvvəl Trampın Rusiya ilə əlaqələrdə şübhəli bilinən özünün keçmiş köməkçisi Maykl Filinnə qarşı təhqiqatın dayandırılmasını xahiş etməsi barədə məlumatın KİV-də yayılmasına bazarın reaksiyası nəticəsində ortaya çıxıb.

Ən çox itkiyə Facebookun başçısı Mark Zukerberq məruz qalıb. Həmin gün o, 2 milyard dollar itirib. Sərvəti 86,8 milyard dollar olan Microsoftun sahibi Bill Qeytsin itkisi 1 milyard dollar olub. Qara çərşənbədən Amazonun yaradıcısı Ceff Bezos 1,7 milyard itki ilə çıxıb. İspan maqnatı Amansio Orteqa həmin gün 355 milyon dollarının başından keçməli olub.

# SƏNƏTİNƏ XƏYANƏT EDƏNLƏRİN CƏZASI

***Sənət sevgisi, peşə yanğısı insanın iç dünyasından gəlməlidir və bir ömür boyu insanı tərk etməməlidir. Sənətinin icrası zamanı yorulsa da, əldən düşsə də insan bezməməli, sənət sevgisinin atəşi heç bir vəchlə sönməməli, lazım gələrsə belə bir məqamda da vulkan kimi püskürməlidir. Sənət hər mənada insanın həyat qaynağı olmalıdır. Sənət insanın bütün tələbatlarını ödəməlidir. Sənət daşıyıcısının maddi və mənəvi təminatçısı olmalı, insan öz rahatlığını məhz könül verdiyi sənətinin icrası prosesində tapmalıdır. Sənət həm də insan maraqlarının – istər maddi, istər mənəvi – gerçəkləşdiyi bir dünyaya çevrilməlidir. İnsan istirahətini də, əyləncəsini də bu dünyada tapıb, könlünü rahatlatmalıdır. Bütün bunları sevdiyi sənətdən bu və ya digər dərəcədə ala bilməyən insan ona arxa çevirib gedincə, sənətə xəyanətdə suçlanır və bu azmış kimi özünün yeni mənəvi faciəsini yaşamağa məhkum olur. Bundan sonra faciənin ikinci pərdəsi və ən ümdəsi də əsas hissəsi başlanır.***

İnsan könlünün səsinə qulaq asıb istənilən sənət sahəsini seçə bilər. Peşəkar sürücü də ola bilər, qaynaqçı da. Elm sahəsini də seçmək azadlığına sahibdir, incəsənət sahəsini də. Sənət seçimi insanın könül işidir. Bu seçim işində məntiqi düşüncə, qazanılmış təcrübə, başqalarının nümunəsi və ya təsiri də ola bilər. Lakin istənilən halda əsas sənin seçimindir. O üzdən ki, ən azından ömrüyün ən sağlam, ən mənalı böyük bir bölümünü sən seçdiyin peşəyə verməli olursan və ya buna məcbursan.

İndi bir anlıq təsəvvür edək ki, biz artıq sənətimizi seçmək qərarını verib, bir neçə ilimizi də buna xərcləyərək, həmin sənətin sirlərini kamil şəkildə öyrənmişik. Və sevdiyimiz bu sənəti tətbiq etmək üçün bir iş yeri də tapmışıq. Çalışdığımız müəssisədən aldığımız maaş bizim tələbatımızı ödəmir, gələcəyə də ümid bəsləməyə dəyməz. Nədən ki, yaşca səndən böyük həmkarlarıyın aqibəti göz qabağındadır. Bel əyilib, saç-saqqal ağarıb, baş dolu, cib boş. Bu durumu görən bir gənc işçinin yeni bir sənət seçiminə girişməsini ətrafdakıların çoxu anlayacaq. Nədən ki, hamı bir əlli, bir ətəklidir, hamı bunun nədən qaynaqlandığını bilir. Və yeni sənətin qazanılmasına xərclənən zaman və digər məsrəflər də fayda gətirməyəcək. Yenə köhnə tasdı, köhnə hamam. Nə mənəvi rahatlıq var, nə də maddi təminat. Sənətin insana xəyanəti, insanın da sənətinə xəyanəti faciəyə çevriləcək. Və bu sənət dəyişmə prosesi əbədi Sizif əzabına çevriləcək. Bax, bu məqamda sənətindən üz çevirən və ya sənətinə xəyanət edən adamın tragik durumunu anlamaqda çoxları çətinlik çəkəcək. Vay o gündən də, sənətinə xəyanət edən yaradıcı birisi ola. Onun sənətinə xəyanətdən dolayı keçirdiyi sarsıntıların daha dərin olması təbiidir və həmin sarsıntıların buraxdığı görünən və görünməyən izlər şəxsin faciəsinin belirtisidir, böyük faciənin ifadəçisidir.



İndi bir-iki misalla fikrimizi açığa çıxaraq, bir-iki səhnə canlandırmaqla sənətə xəyanətin yaratdığı mənəvi faciələr ətrafında var-gəl edək.

Həkim Hippokrat andı içib, içməməsindən asılı olmayaraq, xəstəni müalicə etməkdən zövq alıb, ruhən dincəlməlidir. Hər xəstənin şəfa tapmasına vəsilə olan həkim mənəvi dincliyə qovşduğunu duymalı və bunun həzzini yaşamalıdır. Bu prizmadan baxdıqda maddi qazanc özünü ən sonda göstərməlidir. Amma etiraf etməyə borcluyuq ki, həyatını təmin etmək üçün həkimin də maddi ehtiyacları var və bu ehtiyaclarını həll etmək üçün həkim həkimliyindən maddi qazanc götürməlidir. Faciə əks proses getdikdə baş verir, yəni maddinin mənəvini üstələməsi həkimin sənətinə xəyanəti kimi bir dəyər qazanır və tarix boyu xalqın sağlamlığı keşiyində duran həkim mənəvi uçruma yuvarlanaraq, həkimliyi maddi zövq mənbəyinə çevirmirmi?

Müəllimliyin ən şərəfli bir peşə olduğunu yada salmaq belə yetərlidir ki, hər bir insanın könlündə yaşatdığı müəllim obrazı bir anın içində canlansın və onu xatırlayanlarla bir yerdə bütün aləm nura boyansın. Müəllimlik ilahi bir sənətdir. Bildiyini tanıdığı və tanımadığı adamlara vermək qədər səxavət göstərən müəllimin maddi sıxıntılardan dolayı çəkdiyi mənəvi əzablar da göz qabağındadır. Şagirdlərinin uğurları arxasında bəzən görünməz olan müəllimin mənəvi qazancını hər hansı bir maddi dəyərlə qarşılaşdırmaq da tərəfimizdən haqsızlıq olardı. Amma müəllimin sənətindən üz döndərməsi, ona xəyanət etməsi halları da yox deyil. Uzun illər ərzində maddi gəlirsizliyini bəhanə edərək, müəllimlik peşəsinin şərəfini aşağılayan, onu gözdən salan, hörmətsiz bir duruma düşürən adamların varlığını da inkar etmək fikrində deyilik. Sənətinə xəyanət edən müəllimin yetişdirdiyi (əslində bunu dırnaqda vermək daha doğru olardı) şagirdləri bürüyən sevgisizliyin, qəddarlığın, biliksizliyin cəmiyyətə sirayət etməsi danılmazdır. Biliyini şagirdinə verməməklə həm sənətinə, həm də özünə xəyanət edən müəllim. O, sənətinə xəyanət yolunu seçməklə təkcə özünün mənəvi ölümünü də hazırlamış olmur, ümumilikdə müəllimliyi ölümə məhkum edir.

Şair ac da qalsa, susuz da qalsa sözə bircə dəfə xəyanət etdimi, onun sənət faciəsi başlayacaq. Xəyanəti ona baha başa gələcək. Sözün ilahi havası ondan üz çevirəcək və uğursuzluq dönəmi şairi tərk etməyəcək. Qəribə səslənsə də, şair və ya sadəcə söz adamı bu uğursuzluq məngənəsindən xilas olmağa cəhd etdikcə xəyanətinin ən ağır cəzası ilə üz-üzə qalmaq acısını dadacaq. Sözə xəyanəti ona qan udduracaq, divan tutacaq, cəza kimi ən ağır iztirab çəkməyə vadar edəcək, onu öz iç dünyasına qapadacaq, öz içinə çəkilməyə məhkum edəcək. Söz adamı sözə xəyanətin cəzasını bu cür çəkməyə məhkumdur. Ancaq nə demək olar, bəlkə mən bu cür hökm verməkdə ifrata varıram, qəddarlıq edirəm?

***P.S.***
***Yaşar Kamalın "İncə Məmməd" romanının qəhrəmanlarından biri olan ləpirçi Topal Əli İncə Məmmədi nə qədər ürəkdən sevsə də, onu təqib edənləri azdırmaq istəsə də, ona xəyanət etməyi ağlından keçirməsə də, sənətinə xəyanət etməyi də düşünmür və Abdi ağanın dəstəsini İncə Məmmədin bir qədər əvvəl tərk etdiyi məkana gətirib çıxarır.***

***A.M. Dəlivəloğlu***

# GÜRCÜSTANDA ÖLKƏNİN DİNİ XƏRİTƏLƏRİ NƏŞR OLUNDU



Gürcüstanda ilk dəfə bütün ölkə miqyasında vətəndaşların dini inancını əks etdirən, habelə dini diqqətəlayiq yerləri göstərən xəritələr yaradılıb.

Xəritələri Dini İşlər üzrə Dövlət Agentliyi nəşr etdirib. Xəritələri Agentliyin nəzdində fəaliyyət göstərən dini siyasətin tədqiq mərkəzi Milli Statistika Xidmətinin 2014-cü il məlumatları əsasında hazırlayıb.

Bu məlumatlara əsasən, Gürcüstanda yaşayan 3,7 milyon adamdan 83,4%-i pravoslavdır. 10,74%-lə müsəlmanlar ikinci, 2,94% göstərici ilə erməni qriqoryanlar isə üçüncüdürlər. Gürcüstan əhalisinin 0,52%-i katoliklər, 0,33%-i İoqovanın şahidləri, 0,23%-i yezidlər, 0,004%-i isə iudeylərdir. Əhalinin 1,8%-i isə "digərləri" kimi qeyd olunub.

Regional və rayon dini xəritələri ilə yanaşı ibadət binalarının xəritələri də hazırlanıb. Onları dini işlər üzrə agentliyin saytında görmək olar.

Regional və rayon xəritələri əhalinin dini haqqında məlumatları əks etdirir. İbadət binalarının xəritəsində isə ölkə ərazisində yerləşən monastırlar, kilsələr və məscidlər qeyd olunub. Layihənin müəllifləri bu xəritələrin ilk növbədə turistlər üçün gərəkli olduğunu düşünürlər.

İbadət binaları xəritələri 3D formatında yaradılıb, onların yalnız elektron formaları var. Regional və rayon xəritələri isə çap formasındadır.

Xəritələrin Tbilisidə keçirilən təqdimatında Gürcüstanın dini icmalarının nümayəndələri, parlament və hökumət üzvləri iştirak ediblər.

Dini işlər üzrə Agentliyin rəhbəri Zaza Vaşakmadze dini xəritələrin hazırlanmasını gərəkli hadisə kimi dəyərləndirib. O, Gürcüstan tarixində bu cür layihənin ilk dəfə həyata keçirildiyini bildirib. Onun sözlərinə görə, nə Sovet İttifaqı dönəmində, nə də müstəqillik illərində bu cür dini xəritələr yaradılmayıb. O, əlavə edib ki, bütün bunlar dinlərarası əməkdaşlığa yardım edəcək və Gürcüstanın turizm potensialını yüksəldəcək.

# VAHİD MİLLİ İMTAHANLAR İYULUN 3-DƏ BAŞLAYACAQ

Gürcüstanda Vahid Milli İmtahanlar iyulun 3-də gürcü dili və ədəbiyyatı imtahanı ilə başlayacaq. Bu barədə Milli İmtahanlar və Qiymətləndirmə Mərkəzinin rəhbəri Maya Miminoşvili məlumat verib.

Gürcüstanda tələbə olmaq üçün üç məcburi fəndən – ümumi qabiliyyət, gürcü dili və ədəbiyyatı, xarici dil, habelə seçim üzrə bir fəndən imtahan vermək tələb olunur.

2016-cı ildə Vahid Milli İmtahanlarda 38,5 mindən çox abituriyent iştirak etmişdi. Bu il isə imtahanlarda iştirak etmək üçün artıq 41 min 200 abituriyent qeydiyyatdan keçib.

İmtahanların keçirilməsi üçün ölkə miqyasında 23 imtahan mərkəzi açılacaq. Vahid Milli İmtahanlar iyulun 27-də başa çatacaq. İmtahanların dəqiq cədvəli yaxın vaxtlarda bəlli olacaq.

Keçən il olduğu kimi, bu il də Vahid Milli İmtahanlar qismən elektron formatda keçiriləcək. Daha doğrusu sualları elektron formatda alan abituriyent onları yazılı şəkildə cavablandıracaq. Təhsil Nazirliyi bu yeniliyi bahalı test bukletlərinin xaricdə çap olunmasına ehtiyac yaranmaması üçün tətbiq edib.

# DÜNYA YAZARLARINI BİR ARAYA GƏTİRƏN TBİLİSİ ƏDƏBİYYAT FESTİVALI

***Gürcüstanda III Tbilisi Beynəlxalq Ədəbiyyat Festivalı keçirilir. Mayın 29-dan iyunun 3-dək davam edəcək tədbirə Rusiya, ABŞ, Avropa ölkələri, Orta Şərq, Cənubi Asiya və Afrukadan gələn yazarlar və şairlər qatılıblar. Tədbirin təşkilatçılarının məlumatına görə, festivalda 18 ölkədən gəlmiş şairlər, yazıçılar, tərcüməçilər və ədəbiyyatşünaslar iştirak edirlər.***



Tədbirdə Rusiyanı şair, nasir, esseçi, tərcüməçi, ədəbiyyatşünas, bir çox mükafatlar laureatı və bir sıra ədəbi mükaftların münsiflərindən biri Sergey Qandlevski təmsil edir. ABŞ-dan məşhur fantast, "Bədənimizin istisi" romanının müəllifi Ayzer Marion, İsraidən şair, novellalar və esselər ustası Amir Or və şairə Diti Ronen Tbilisi festivalında iştirak etmək üçün təşrif buyurublar.

Alman yazıçısı Katya Lanqe-Müller, Ukrayna mənşəli alman yazıçısı və jurnalisti Katya Petrovskaya, Berlindən rus-yəhudi əsilli yazar Olqa Qryaznova, alman söz ustaları Ulla Lentse və Klemens Mayer, Avstriya dramaturqu Folker Şmidt, litov şair, tərcüməçi və ədəbiyyatşünası Tomas Ventslova, ərəbdilli Liviya nasiri, romançı, novella ustası, publisist və jurnalist İbrahim əl-Kuni kimi söz adamları da III Tbilisi Beynəlxalq Ədəbiyyat Festivalının qonaqları arasındadırlar.

Ukrayna ədəbiyyatçısı Marianna Kianovskaya, Azərbaycan yazıçısı Ələkbər Əliyev, türk ədibi Tozan Alkan, belarus şairəsi Volya Xapeyeva, çex ədibi Yaromir Tiplt, polyak ədəbiyyatçısı Daniuş Tomaş Leboida, habelə Banqladeşdən Anisur Rəhman, Böyük Britaniyadan Riçard Berenqarten, Yunanıstandan Dimitris Liakos və Estoniyadan Yurgen Rooste kimi sənətkarlar da bu beynəlxalq festivalın iştirakçılarıdırlar.

Aldığımız məlumata görə, festivalın gedişində şair və yazıçılarla müxtəlif görüşlər, tələbələr üçün müxtəlif səpkili mühazirələr, müxtəlif mövzularda diskussiyalar, habelə musiqi və poeziya gecələri keçirilir. Bu poeziya gecələrinin iştirakçıları əcnəbi müəlliflərin öz ifasında və gürcü dilində tərcüməsilə birlikdə onların şeirlərini eşitmək şansından yararlanırlar.

Festival Yazıçılar evində, Kral məhəllə teatrında, Q. Leonidze adına Gürcü Ədəbiyyatı Muzeyində, İ. Cavaxişvili adına TDU-da, İlya Dövlət Universitetində, Milli Parlament Kitabxanasında və Qafqaz evində bir-birindən fərqli və rəngarəng tədbirlərin keçirilməsi ilə iştirakçılara xoş anlar yaşadır. Bütün festival tədbirlərinə qatılmaq azaddır, istənilən adam bu tədbirlərdə iştirak edib, könlünü əyləndirə bilər.

Tbilisi Beynəlxalq Ədəbiyyat Festivalının əsası 2015-ci ildə qoyulub. Bu festival Yazıçılar evinin və Gürcüstanın Mədəniyyət və Abidələrin Mühafizəsi Nazirliyinin dəstəyi ilə araya-ərsəyə gəlib.

Əvvəlki illərdə düzənlənən I və II Beynəlxalq Tbilisi Ədəbiyyat Festivallarında Avstraliya yazıçısı, 2003-cü ilin Buker mükafatı laureatı Piter Uorren Finley, daha çox Di Bi Si Pyer kimi tanınan İsrail yazıçısı, ssenaristi və dramatruqu Etkar Keret, Almaniyada yaşayan gürcü yazıçısı Nino Xaratişvili, ingilis şairi Lyuk Kennard, holland şairəsi Ester Naomi Perkvin, rus və ameikan şairi Aleksandr Qalper, Ukrayna şairi və tərcüməçisi Yuri Andruxoviç və bu kimi ünlü ədəbi simalar iştirak etmişlər.

Sonda Gürcüstanda yaşayıb-yaradan azərbaycanlı ədiblərin bu ədəbiyyat festivalında iştirak etməməsini, müxtəlif dillərdə səsləndirilən ədəbi parçalar arasında onların səsinin eşidilməməsini təəssüflə vurğulayaraq, bu beynəlxalq miqyaslı ədəbi tədbir barədə qeydlərimizi yekunlaşdırırıq.

Afayət AFİQ

## İLK GÜRCÜ PLANŞETLƏRİ İSTEHSAL OLUNUR

Təxminən bir ay sonra AG Telekom şirkəti Gürcüstan bazarına öz istehsalı olan smartfonlar və planşetlər çıxaracaq. Şirkətin rəhbəri Mixail Qlontinin sözlərinə görə, bu layihənin gerçəkləşdirilməsi üçün 500 000 dollara yaxın sərmayə qoyulub.

Şirkət iki cür planşet buraxmaq niyyətindədir. Onların qiyməti 300-320 lari təşkil edəcək. Smartfonların qiyməti isə 900 lari olacaq.

Mixail Qlonti bildirib: "Hazırda biz sınaq modellərinin yoxlanılması rejimindəyik. Satışa çıxarılmazdan əvvəl məhsul 100 gün işləməlidir, bundan sonra onu hazır hesab etmək olar. Yəqin ki, bu iyunda baş tutacaq".

AG Telekom televizorlar da istehsal edir. Menecment onun satışından razıdır.

Bundan başqa, AG Telecomun televizorları Azərbaycana da ixrac olunur. Şirkət rəhbərinin sözlərinə görə, müəssisənin məhsullarına digər ölkələrdə də maraq var.

## GÜRCÜSTANDA ELEKTROMOBİLLƏRİN YIĞILMASINI HƏYATA KEÇİRƏN ZAVOD AÇILACAQ



Çinin avtomobil və avtobus istehsalçısı olan JAC Motors (Anhui Jianghuai Automobile Co., Ltd) şirkəti Gürcüstanda elektromobillərin yığılmasını həyata keçirən zavodun tikintisinə başlayır. Bu barədə məlumatı Gürcüstan Maliyyə Nazirliyinin mətbuat xidməti yayıb.

Bu barədə razılaşma Gürcüstan baş nazirinin birinci müavini, maliyyə naziri Dmitri Kumsişvilinin JAC Motorsun top-meneceri ilə Çinin Xefey şəhərindəki görüşdə əldə olunub.

## ELEKTROMOMİLLƏR ÜÇÜN YANACAQDOLDURMA STANSİYALARI AÇILACAQ

Cari ilin sonunadək Tbilisidə elektromobillərin enerji ilə yüklənməsi məqsədilə ilk üç yanacaqdoldurma stansiyası açılacaq. Bu barədə Tbilisi meri David Narmaniya məlumat verib.

O, qeyd edib: "2017-ci ildə isə bütövlükdə Gürcüstanda elektromobillər üçün 100-dək yanacaqdoldurma stansiyası açılacaq. Paytaxtdan başqa, belə stansiyalar mərkəzi avtomobil yollarında və Qərbi Gürcüstanın bir neçə regionunda fəaliyyət göstərəcək".

Stansiyalarda Avstriya istehsalı olan avadanlıqlar quraşdırılacaq.

Xatırladaq ki, hal-hazırda Tbilisidə cəmi 50 elektromobil var.

## GÜRCÜSTAN VƏTƏNDAŞLIĞIN QAYTARILMASI QAYDALARINI SADƏLƏŞDİRİR

Gürcüstan hökuməti ölkə vətəndaşlığının qaytarılması qaydalarının sadələşdirilməsinə dair yeni təşəbbüsü nəzərdən keçirir. Bu barədə Gürcüstanın baş naziri Georgi Kvirikaşvili Tbilisidə Gürcü Diasporu Gününə həsr olunmuş forumda çıxış edərkən məlumat verib.

Baş nazirin sözlərinə görə, konstitusiya islahatları çərçivəsində "digər dövlətlərin vətəndaşlığını almış ölkə sakinlərinin bundan sonra Gürcüstan vətəndaşlığının qaytarılmasına dair mürəkkəb prosedurlardan keçməsinə ehtiyac qalmayacaq".

Kvirikaşvili bəyan edib: "Mən ümid edirəm ki, yeni konstitusiya dəyişiklikləri çərçivəsində bu qərar qəbul ediləcək və o, Gürcüstan nümayəndələrinin dövlətimizin həyatına fəal şəkildə qoşulma imkanlarını olduqca yüngülləşdirəcək".

Baş nazirin məlumatına görə, bu təşəbbüs Gürcüstan parlamentinin deputatı, DİN-nin keçmiş başçısı Salome Zurabişviliyə məxsusdur.

## GÜRCÜSTAN DİN SÜRÜCÜLÜK MƏKTƏBLƏRİNİN İSLAHATI ÜZƏRİNDƏ İŞLƏYİR

Sürücülük məktəblərinə avtorizasiya tələb oluna bilər. Sürücülük vəsiqəsi almaq üçün imtahanlara isə yalnız avtorizasiya olunmuş məktəblərdən keçən şəxslər buraxılacaqlar.

Bu istiqamətdə nəzərdə tutulan dəyişikliklər barədə daxili işlər nazirinin müavini Şalva Xutsişvili Palitranews-un "Mənim sualım" proqramında bəhs edib.

Xutsişvili deyib: "Biz sürücülük vəsiqəsi imtahanlarının layihəsi üzərində işləyirik. Təhsil nazirliyi ilə fəal məsləhətləşmələr aparırıq, əgər bu məsləhətləşmələr uğurlu olsa, təhsil nazirliyi bütün sürücülük məktəblərinin avtorizasiyasını öz üzərinə götürməlidir. Belə məktəblərin xüsusi proqramı olacaq. Bütün bunların monitorinqi keçiriləcək. Bu cür məktəblərdən keçənlər imtahanlara buraxılacaq. İmtahanlarımızın standartı da yüksək olacaq. Biz bu layihə üzərində böyük islahat kimi işləyirik". Onun sözlərinə görə, hökumətin bununla bağlı mövqeyi yaxın vaxtlarda bəlli olacaq.

## GÜRCÜSTANDAN YUNANISTANA GÖN İXRACINA BAŞLANDI

Gürcüstandan Yunanıstana xam gön ixracına start verilib. Ərzaq Təhlükəsizliyi Agentliyinin məlumatına görə, gönün aparılması ilə əlaqədar ixrac sertifikatı verilib.

Ərzaq Təhlükəsizliyi Agentliyinin əməkdaşı bildirib: "Xam qaramal gönü Avropa İttifaqı ölkələrinə ilk dəfə ixrac olunan yundan sonra heyvan mənşəli ikinci qeyri-ərzaq məhsuludur. Göstərilən fakt bir daha sübut edir ki, Aİ Gürcüstana etibar edir".

Agentliyin məlumatına görə, Gürcüstandan Böyük Britaniyaya qoyun dərisi ixracı 2017-ci ilin yanvarında həyata keçirilib. Bundan əlavə, 2016-cı ilin dekabrında Avropa İttifaqı formal prosedurları başa çatdırıb, artıq gürcü balını Avropa İttifaqı bazarına çıxarmaq mümkün olacaq.

# ƏZABKEŞ ŞAİR

Elizbar CAVELİDZE

***Bu il Azərbaycanın dahi şairi və mütəffəkiri İmadəddin Nəsiminin ölümünün 600-cü ildönümüdür. Bununla əlaqədar olaraq Bakıda bir sıra tədbirlərin, elmi konfransların keçirilməsi planlaşdırılır. Gürcüstan Milli Elmlər Akademiyasının akademiki Elizbar Cavelidze də həmin tədbirlərə dəvət alıb. Odur ki, Nəsimi haqqında onun 40 il bundan əvvəl yazdığı yazını tərcümə edərək, sizin ixtiyarınıza verirəm. Onu da qeyd edim ki, həmin ərəfədə bu tanınmış gürcü aliminin gənc yaşlarında yazdığı "Füzuli" monoqrafiyasının mənim tərcüməmdə Bakıda nəşr olunması və təqdimatının keçirilməsi də nəzərdə tutulub.***

***Hörmətlə: Mirzə Məmmədoğlu***

**Hələbin mərkəzi meydanlarından birinə çamaat toplaşırdı. Bığ yeri yenicə tərləmiş bir gənc çılğın hisslərlə şeir oxuyurdu:**

Ay ilə günəş üzün heyranıdır,
Mişk ilə ənbər saçın tərxanıdır,
Çün Nəsimi aləmin sultanıdır,
Dövr anın, dövran anın dövranıdır.

Qaşqabaqlarını sallamış, bənizləri solmuş fəqihlər qazilərə xəbər yetirdilər. Qazilər onun həbsi barədə fərman verdilər. Gənci tutdular və bu eşidilməmiş təhqiredici, iyrənc sözlərlə dolu olan şeirin kimə mənsub olduğunu soruşdular. O, şeiri özünün yazmış olduğunu söylədi.

- Ölüm, ölüm!.. Ruhanilər bir ağızdan bağırdılar. Gənc ölümə məhkum idi. Cəlladlar hazırlaşmağa başladılar. Bütün bunları şeirin həqiqi müəllifinə bildirdilər. O, tələsik qara ölümün qədəm basdığı meydana doğru üz tutdu, özünü yetirərək qürurla dedi:

- Bu gənc oğlandan əl çəkin! Bunun ona heç bir dəxli yoxdur. Bu şeiri yazan mənəm.

Camaat ah-vay etməyə başladı. Ruhanilərin üzündə çoxmənalı təbəssüm əmələ gəldi. Onların qarşısında dövrün böyük şairi, içtimaiyyəti üsyana qaldıran, qiyamçı mənəviyyat sahibi Nəsimi dururdu. Şairə paxıllıq edənlərin arzuladığı an yetişdi. Onu dəhşətli işgəncə verməklə ölümlə cəzalandırdılar. Onun diri-diri dərisi soyulmalı idi. Cəlladların məhvedici əlləri işə düşdü. Şair dözülməz işgəncələrə dözürdü. Hələb meydanında qan su yerinə axdı. Haldan düşən şairin rəngi saraldı. Elə orada olan, qara libasa bürünən şeyx qara qarğa kimi qırıldadı:

-Nədir, şair, sən ki həqqsən, bəs rəngin niyə sarıdır!

Nəsimi var gücünü toplayaraq cavab verdi:

Mən əbədiyyət üfüqlərində doğan eşq günəşiyəm. Günəş qüruba enəndə, rəngi saralar! Ona görə ki, səhər yenə də daha artıq parıltı ilə şölələnsin və daha hərarətlə dünyanı isitsin.

Doğrudan da belə olmuşdur. Nəsiminin diri-diri dərisini soymuşlar, lakin onun poeziyasından bir şey əskildə bilməmişlər. Onun adı halə kimi ağlı ilə, istedadı ilə seçilənlər arasında şölə saçdı. Əfsanəyə görə, diri-diri soyulan şairin dərisi gözqamaşdırıcı şüa kimi şölə saçdı, dikəlib orada olanları heyrətləndirərək dörd tərəfə üz tutdu. Şair müqəddəs olaraq bəyan edildi. Lakin bu əfsanəni yaradanlar, güman ki, hər şeydən öncə Nəsimi poeziyasının sönməz şüalar saçmasını nəzərdə tuturdular. Dörd guşəyə – şərqə və qərbə, şimala və cənuba saçılaraq bütün aləmə yayılmışdır...

İnananlar inananın dərisini diri-diri soydular. Nə baş verdi? Məsələ burasındadır ki, ümumiyyətlə, din tarixində və ələlxüsus, Şərqdə inkişafın iki yolu mövcud idi: Ekzoterik (zahiri )və ezoterik (batini). Bu təmayüllər arasında bəzən parçalanmalar və fikir ayrılığı baş verirdi ki, bu da çox hallarda kəskin münaqişələrə səbəb olurdu. Bu, Şərq gerçəkliyində özünü aydın şəkildə büruzə vermişdir ki, burada da ifrat batini təmayülü təqib olunurdu və onların nümayəndələrini odla, qılıncla qarşlayırdılar. Belə bir ifrat batini təmayülünə hurifilik də məxsus idi və Nəsimi də onun ideyalarının fədakar vaizi idi.

Hürufiliyin əsasını astrabadlı dərviş Şəbahəddin Fəzlullah Nəimi qoyub. O, yeni mürəbbini təmsil etmir və sufizm ilə sıx əlaqə yaradır, lakin bir sıra məsələləri dərk etməkdə bu sonuncudan əsaslı şəkildə fərqlənir. Hurifilik mürəbbilərinə uyğun olaraq aləmin fərqinin ilk səbəbi olaraq ilahi söz olan loqonu hesab etməliyik . Buna görə də söz yaradıcılığın məğzidir, hərf isə görünən aləmin mövcudluğunun əsasıdır. (ümumiyyətlə, hurifilik termini ərəbcədir və hərflər mənasını verir). İlahi söz hərflərinin metamorfozasını bütün əşyalarda və hadisələrdə axtarmalıyıq. Məhəmməd peyğəmbər ərəb dilində (belə ki, 28 hərf ilə) , Fəzlullah isə far-



sca (belə ki, 32 hərflə ) vəz etdiyindən bu 28 və 32 hərfin rəqəm miqdarı potensial olaraq hər şeydə əhatə olunub və onun aşkar edilməsi lazımdır ki, onun vasitəsi ilə də biz ilahi varlığı dərk edəcəyik. Bu, gerçəkliyi axtarmağın yeganə və həqiqi yoludur. Buna görə də bu 28 və 32 hərfin cəmini onlar hər şeydə axtarır və hər şeyi onlarla əlaqələndirirdilər və onların məntiqi mühakiməsi bu rəqəmləri mistik rəmz olaraq dumanlaşdıraraq, anlaşılmazlığa qədər çatdırmışdır. Lakin bu təmayülün ortadoksal islama nisbətən bir çox mütərəqqi baxışları da əmələ gəlib. Bu başqa şeylər barədə heç nə deməsək, hürufilik insanın özünü idrak və pərəstiş obyekti etmişdir, hürufilərin fikrincə, tanrının mikrokosmosunu, onun (Tanrının yaradıcılığının son məqsədini) təşkil edir. Onlar insanın simasında elə Tanrının varlığının maddiləşdiyini təsdiq edirlər, insan simasının gözəlliyini görmək və dərk etmək elə Tanrı varlığının dərk edilməsi ilə eynidir. Və nəhayət onlar bizə məlumat verirlər ki, insan sevgisi Tanrı sevgisinin bərabəridir. Bu baxışların öz vaxtında həddindən artıq böyük mütərəqqi əhəmiyyəti var idi. Dərk edənin nəzəri transendentik aləmdən kənara çıxırdı, bu dünyaya və xüsusən insana doğru yönəlmişdi. Obyektiv gerçəkliyə qarşı bu cür yanaşma isə intibah fikrinin əmələ gəlməsini şərtləndirirdi.

Nəsiminin yaradıcılığı isə bütün Şərqdə, ələlxüsus isə onun vətəni Azərbaycanda həddindən artıq böyük populyarlıq qazanmışdır və qazanmaqdadır. Onun qəzəlləri, qəsidələri, istərsə də rübailəri fikir tutumu ilə fərqlənir və çətin anlaşılan mistik doktrinasını üstüörtülü, bəzən də birbaşa açıq şəkildə bizə çatdırır. Buna baxmayaraq, şairin dili həmişə sadədir. Hamı üçün anlaşılandır. Bu, əsasən Nəsiminin lirikasında özünü büruzə verir. Şairin bədii aləmi olduqca zəngin, zərif və dolğundur. Deyilən kəlmələr və empirik gerçəklik naxışlı səliqə ilə qaynayıb qarışıb.

Qarşıdakı tərcümələr bu böyük şairin gürcücə səsləndirilməsinin faktiki olaraq ilk cəhdidir. Ümumiyyətlə, Nəsiminin gürcücə tərcüməsi müəyyən çətinliklərlə bağlıdır. Çünki şairin mistik düşüncəsinin rəmzi hərgah gürcü oxucuları üçün əksər hallarda anlaşılmazdır. Məhz elə burada tərcüməçinin qabiliyyəti özünü göstərməlidir. Maksimum dəqiqliyi ilə Nəsimi şeirinin orijinal məğzini elə göstərməlidir ki, gürcü oxucusu tamamilə təbii olaraq və aydın şəkildə şair istedadının səylərini qavraya bilsin. Tərcüməçinin şərəfinə demək lazımdır ki, o, həddindən artıq, lakin həsəd aparılası bu işdə özünü doğruldub. Tərcümə olunan rübailərin demək olar ki, hər sətri yuxarıda deyilənlərin gerçək təsdiqidir və bu işə olan sevginin ən yaxşı nümunəsidir. Gürcü tərcüməçiliyi məktəbi daha bir gözəl işin qulpundan yapışdı. Biz minnətdarılqdan başqa artıq nə deyə bilərik.

"Siskari" jurnalı, 1976, №12

## GÜRCÜSTAN SİQARET ÇƏKƏN 182 ÖLKƏ ARASINDA 39-CUDUR

Çin dünyanın ən çox siqaret çəkən ölkəsir. Burada adambaşına ildə 4124 siqaret çəkilir. Bu, günə 11-12 siqaret deməkdir. Çindən sonra ən çox siqaret çəkən ölkə Belarusdur (3831). Onun ardınca Livan (3023), Makedoniya (2732) və Rusiya (2690) gəlir.

Ümumdünya Səhiyyə Təşkilatının 31 may Tütünə qarşı mübarizə gününə həsr olunmuş bu interaktiv xəritəsinə baxmaq belə kədərlidir.

Qazaxıstanda adambaşına ildə 2156 siqaret çəkilir və o, bu göstərici ilə reytinqin 12-cisidir. Digər Mərkəzi Asiya respublikalarında siqaret əhəmiyyətli dərəcədə az çəkilir. Türkmənistan ildə adambaşına 895 siqaretlə 69-cu yeri tutur. Özbəkistan 565 siqaretlə 92-ci, Tacikistan 533 siqaretlə 97-ci yerdədir.

Azərbaycan Cənubi Qafqazda ən çox siqaret çəkən ölkə sayılır. Azərbaycanda adambaşına bir ildə çəkilən siqaretlərin sayı 2114, 33-dür. Adambaşına çəkilən siqaretlərin sayına görə Azərbaycan 13-cü yerdədir. Gürcüstanda bir ildə adambaşına düşən siqaretlərin sayı 1378-dir və bu göstərici ilə o, 39-cu pilləni tutur. Ermənistanda isə bu göstərici 1545-dir (30-cu yer). Türkiyədə (29-cu yer) bir ildə hər adama 1581 siqaret düşür. İranda (71-ci yer) bu rəqəm 853-dür.

Afrika ən az siqaret çəkilən qitədir. Qvineya dünyada ən az siqaret çəkən ölkədir. Burada adambaşına ildə cəmi 15 siqaret düşür.

İndeksə daxil edilmiş 182 ölkədən 68-ində adambaşına gündə bir siqaretdən az düşür. 61 ölkədə isə ildə adambaşına 1000-dən artıq siqaret çəkilir.

Reytinqdə Britaniya 76-cı, ABŞ isə 57-ci yeri tutur.

## GÜRCÜSTANDA 325 «QANUNİ OĞRU» QEYDƏ ALINIB

Gürcüstan DİN böyük hissəsi postsovet məkanında və Avropa İttifaqı ölkələrində yaşayan 325 "qanuni oğru"nu qeydiyyata alıb.

Parlamentin xarici əlaqələr və Avropa ilə inteqrasiya komitələrinə "Avropa polis xidməti və Gürcüstan arasında strateji və operativ əməkdaşlıq haqqında" müqavilə təqdim olunub. Komitələr müqaviləni bəyəniblər, indi sənəd parlamentdə öz təsdiqini gözləyir.

Daxili işlər nazirinin müavini Şalva Xutsişvili deyib: "Çox az hissəsi Gürcüstan həbsxanalarında, qalanları isə postsovet məkanında və Avropa İttifaqında olan gürcü mənşəli 325 "qanuni oğru" qeydə alınıb. Bir ölkədə qeyri-qanuni gəlir əldə edildikdə, digər ölkədə onun yuyulub təmizlənməsi baş verir, Avropa polisi ilə razılaşma bizim bu mənzərəni tam görməmizə imkan verir".



Nazir müavini sənədin gürcü polisinin öz avropalı həmkarları ilə əməkdaşlığını dərinləşdirəcəyinə əmindir. Xutsuşvili deyib: "Biz yüksək səviyyəli müqavilə bağlamışıq. Belə müqaviləni Avropa İttifaqına daxil olmayan ölkələr bağlaya bilər. Bu göstərir ki, bizdə yüksək standart mövcuddur, çünki Avropa ilə bu cür razılaşma Amerika, Norveç, İsveçrə kimi polis standartı yüksək olan ölkələrlə bağlanıb".

HAQQIN SÖZÜ-SÖZÜN HAQQI.

# Yeni YOL

31 may 2017-cı il
№010 (48)

yeni_yol@mail.ru / İCTİMAİ QƏZET / "იენი იოლი" საზოგადოებრივი გაზეთი / qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur

## BAKIDA "AZƏRBAYCAN GÜRCÜ FOTOQRAFLARININ GÖZÜ İLƏ" ADLI SƏRGİ KEÇİRİLİB



Mayın 26-da, yeni Gürcüstanın Müstəqillik Günündə Bakının "Nur Art House" qalereyasında "Azərbaycan gürcü fotoqraflarının gözü ilə" sərgisinin açılışı olub. Sərginin ekspozisiyası Gürcüstan Fotoqraflar Assosiasiyası üzvlərinin, Azərbaycan mövzusunda FİAP 2016 fotomüsabiqəsinin qaliblərinin işlərindən təşkil olunub.

Sərgi "Gürcüstan fotoqrafiya günləri" çərçivəsində keçirilib və mayın 28-dək – Azərbaycanın Müstəqillik Gününədək davam edib. Sərgi Art Factor şirkətinin dəstəyi və Gürcüstan Fotoqraflar Assosiasiyasının iştirakı ilə, Azərbaycan Fotoqraflar Birliyinin və Azərbaycan Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı ilə baş tutub.

Tədbir günlərində Azərbaycan sənətsevərləri Gürcüstanın foto sənəti ilə tanış olmaq imkanı qazanıblar. Sərgidə 2016-cı ildə Gürcüstanda FİAP şirkətinin dəstəyilə təşkil olunmuş beynəlxalq foto müsabiqənin qalibləri öz əsərlərini təqdim ediblər.

Fotoqrafiya günlərində sənətsevərlər Gürcüstandan təşrif buyuran 15 fotoqrafla tanış olmaq, habelə fikir mübadiləsi aparmaq və layihələrin perspektivləri ni müzakirə etmək imkanı qazanıblar. Bundan əlavə, qonaqlar üçün Abşeronun görməli yerlərinə ekskursiyalar da təşkil olunub.

## BMT BEYNƏLXALQ TƏRCÜMƏ GÜNÜ TƏSİS ETDİ

BMT Baş Assambleyası sentyabrın 30-nu rəsmi olaraq Beynəlxalq Tərcümə Günü elan edib.

Müvafiq qətnamə mayın 24-də qəbul edilib.

Bu məsələ ilə əlaqədar qəbul edilmiş qətnamədə tərcümənin xalqların yaxınlaşmasında, qarşılıqlı anlaşma və əməkdaşlıqda, inkişafın təmin edilməsində, beynəlxalq sülhün və təhlükəsizliyin təmin edilməsində vacib rolu vurğulanıb.

Sənədin müəllifləri qismində Azərbaycan, Banqladeş, Belarus, Vyetnam, Qətər, Kosta-Rika, Kuba, Paraqvay, Türkmənistan, Türkiyə və Ekvador çıxış edib.

## AĞ TUTUN SAĞLAMLIQ ÜÇÜN FAYDALARI

Ağ tut faydalı pəhriz məhsuldur. Müxtəlif vitaminlər, minerallar, bioloji aktiv maddələr, pektinlər, təbii şəkərlərlə zəngin olan ağ tut bir çox xəstəliklər zamanı olduqca faydalıdır. Ağ tutdan faydalanmanız üçün onun bəzi məziyyətləri ilə sizi tanış edirik.

Ürək-damar sistemi xəstəlikləri zamanı və bu xəstəliklərin profilaktikası üçün ağ tut yeyin. Ağ tut ürək əzələsini və damarları möhkəmləndirir, aterosklerozun inkişaf riskini azaldır.

Ağ tut nəfəsalma sistemində iltihabları azaldır, bəlğəmgətirici təsirə malikdir.

Sidikqovucu təsirə malik olan ağ tut təzyiqi tənzimləməyə, ödemləri azaltmağa kömək edir.

Əqli fəaliyyətilə məşğul olan insanlar mütləq ağ tut yeməlidirlər. Fosfor və qlükoza ilə zəngin olan bu giləmeyvə beyinin fəaliyyətini yaxşılaşdırır.



Ağ tut sinir sisteminə müsbət təsir edir, stressi azaldır, əhvalı yaxşılaşdırır.

Kalsium və fosforla zəngin olan ağ tut sümüklərin sağlamlığı üçün faydalı sayılır.

Ağ tut qaraciyər üçün də çox faydalıdır.

## "SAMSUNG" İKİ KAMERALI YENİ TELEFON MODELƏNİ TƏQDİM EDİB

Cənubi Koreyanın nəhəng texnologiya şirkətlərindən biri olan "Samsung" daha bir yeniliyə imza atıb.

Şirkət ilk dəfə arxasında iki kamera quraşdırılmış mobil telefonların istehsalına başlayacaq.

Daha əvvəl "Apple" və "HTC" şirkətlərinin istehsal etdiyi telefonlarda istifadə olunan texnologiya bu dəfə "Samsung"un "C10" modelində istifadəçilərə təqdim olunacaq.

Cihazın digər ölkələrdə satışa çıxarılıb-çıxarılmayacağı barədə hələ ki, rəsmi açıqlama verilməyib.

## FATİH SULTAN MEHMET KÖRPÜSÜ AZƏRBAYCAN BAYRAĞI RƏNGİNƏ BOYANIB



Türkiyənin İstanbul şəhərində yerləşən Fatih Sultan Mehmet körpüsü may ayının 28-də Azərbaycan bayrağının rəngini alıb.

Aksiya Azərbaycanın İstanbuldakı Baş Konsulluğunun təşəbbüsü, İstanbul valiliyi və Nəqliyyat, Dənizçilik və Kommunikasiya Nazirliyinin dəstəyi ilə 28 May – Respublika Günü münasibətilə təşkil olunub.

Belə ki, həmin gün saat 20:00-dan səhər açılana kimi körpü üçrəngli Azərbaycan bayrağının rənglərini daşıyan işıqlara bürünüb.

## BAŞQURD MÜHƏNDİS CƏRƏYAN YARADAN SOBA YARADIB



Ufalı Aydar Xayrullin mobil telefonlar üçün yükləmə qurğusu ixtira edib. Qurğu istini elektrikə çevirir. Bu qurğu qatlanan kiçik sobadır. Onu kiçik odun parçaları ilə qalamaq mümkündür. O, ocağın istisini istənilən mobil telefonu enerji ilə dolduran cərəyana çevirə bilir.

Bu qurğu Tengu adlanır. Onun əsasını istilik enerjisini elektrik enerjisinə çevirən termogenerator təşkil edir. Qurğu yana bilən hər şeylə işləyir. Soba səfər şəraitində istifadə etmək üçün münasibdir. Telefon yüklənənə qədər sobada su qaynatmaq, yemək bişirmək mümkündür. Enerji doldurma müddəti adi şəbəkədə olduğu kimidir. Məsələn, iPhone telefonlarını bu qurğu vasitəsi ilə saat yarıma yükləmək olar. Sobanın metal gövdəsindən zirehli odadavamlı kabel çıxır və onun ucunda standart ölçülü USB quraşdırılıb. Ona isə istənilən yükləmə kabeli qoşmaq olar.

Cərəyanın gücünü sabit saxlamaq üçün qurğuya stabilizator qoşulub. Əgər cərəyan zəif olarsa, yükləmə avtomatik olaraq kəsilir.

Soba yığcamdır. Qatlama konstruksiyası onu kiçik çantaya yerləşdirməyə imkan verir. Sobanın hərəkətsiz hissələri olmadığından yerə düşdükdə və zərbə aldıqda sınmır.

## «QIZIL BUTS»UN SAHİBİ BƏLLİ OLDU




İspaniyanın "Barselona" futbol klubunun və Argentina millisinin hücumçusu Lionel Messi 2016-2017-ci il futbol mövsümünün yekunlarına görə "Qızıl buts"a sahib olub.

"Qızıl buts" Avropa liqalarında rəqib qapılarından ən çox top keçirən futbolçuya verilir.

L.Messi İspaniya La Liqasının 2016-2017-ci il mövsümündə 34 matçda ümumilikdə 37 qol vurub.

İkinci yerdə 34 qolla Lissabonun "Sportinq" klubunun hollandiyalı hücumçusu Bas Dost, üçüncü yerdə isə hesabında 31 qol olan Dortmundun "Borussiya" klubunun qabonlu forvardı Pyer-Erik Obameyanq qərarlaşıb.

Xatırladaq ki, Lionel Messi bu mükafatı artıq dördüncü dəfədir qazanır. O, bundan əvvəl 2010, 2012 və 2013 illərdə qitənin ən məhsuldar futbolçusu olub.

Təsisçi:
"Gürcüstan Gənclərinə Yardım Və Maarifləndirmə Təşkilatı"

*Redaktor:* Afiq Muxtaroğlu
*Yayım Direktoru:* Hacı Bəkiroğlu

*ÜNVAN:* Qardabani şəh. Kolxoz küç, 4
*TEL:* (+995) 595 92 25 70
599 54 12 92
*EMAİL:* yeni_yol@mail.ru

Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet hələlik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.